2. “Energetika haqqında” AR-in Qanunu. BB №8, Bakı, 1999, 17 s.
3. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, “Xalq”qəzeti, 30 dekabr 2012-ci il.
4. Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair milli prioritetlər
5. İqtisadiyyat nazirliyinin rəsmi internet səhifəsi

## AZƏRBAYCANDA KİÇİK BIZNES QURUMLARININ MÖVCUD VƏZIYYƏTI

*Xəlilova Xəyalə Qəmbər qızı*
*Mingəçevir Dövlət Universiteti*

Kiçik və orta biznes müəssisələrinin maliyyə imkanları, maliyyələşdirmə mənbələrinin quruluşu, onların iqtisadi və investisiya fəallığına mühüm təsir göstərir. Hazırda Azərbaycanda kiçik və orta sahibkarlara dövlət, özəl beynəlxalq maliyyə köməyi sistemi fəaliyyət göstərir. Müstəqillik illərində kiçik və orta müəssisələrə maliyyə köməyi sahəsində müəyyən müsbət təcrübə toplanmışdır. Lakin bütün bunlara baxmayaraq, öz potensialına görə ölkənin iqtisadiyyatında mühüm rol oynayan kiçik və orta sahibkarların maliyyə vəsaiti mənbələrindən yetərincə istifadə etməsi məhdud xarakter daşıyır. Bu məhdudluq uzun və qısamüddətli kreditlərin əldə olunmasında da özünü göstərir. Azərbaycanda həlli tələb olunan mühüm vəzifələrdən biri kiçik və orta biznesin investisiya fəaliyyətinin fəallaşdırılması və bu bölməyə maliyyə resurslarının cəlb olunması imkanlarının genişləndirilməsidir. Kiçik və orta sahibkarların öz pul yığımı imkanlarının olmaması, dövlət büdcəsindən bu sektora vəsait yönəltmək imkanlarının məhdudluğu, kommersiya banklarının öz kredit resursları, o cümlədən beynəlxalq və xarici maliyyə institutlarının kredit resursları üçün faiz dərəcəsinin yüksək olmasl, təminat və girov çətinlikləri kiçik və orta biznesin maliyyələşdirilməsini çətinləşdirir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kiçik və orta biznesin inkişafına təsir edən amillər içərisində maliyyə amilləri bazar iqtisadiyyatına keçidin bütün dövrü ərzində ən zəif təsur qüvvəsini malik olmuşdur. Bu, bir tərəfdən maliyyə resurslarının məhdudluğu ilə izah olunursa, digər tərəfdən verilən kreditlərin səmərəsiz istifadəsi, geri qaytarılmaması ilə izah oluna bilər. Kiçik və orta biznesin fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbələrinə dövlət büdcəsi vəsaiti, kommersiya banklarının kredit resursları, beynəlxalq vı xarici bankların və maliyyə institutlarının kredit xətləri aiddir.

Azərbaycanda kiçik və orta sahibkarlara dövlət maliyyə köməyinin iki mexanizmi təşəkkül tapmışdır.

I mexanizm fermer təsərrüfatlarına subsidiya formasında kredit güzəştləri verilməsidir. Bu mexanizm vasitəsilə fermer təsərrüfatlarının kommersiya banklarından aldıqları kreditin faizinin büdcə vəsaiti hesabına fermerlərin əvəzinə ödənilməsi təmin olunmuşdur.

II mexanizm kiçik sahibkarlığa investisiya yardımının həyata keçirilməsidir. Bu məqsəd üçün dövlət büdcəsindən vəsait ayrılması nəzərdə tutulur. Bu vəsait sahibkarlığın prioritet istiqamətləri üzrə investisiya layihələrinə müsabiqə əsasında

güzəştli uzunmüddətli kredit formasında yönəldilir. Kredit istehsal məqsədlərinə verilir.

Lakin hazırda respublikada istehsal sahəsində sahibkarlıq fəaliyyətinin, kredit təminatı məsələsinin çətinlikləri kiçik və orta sahibkarlar üçün maliyyə vəsaitinin bu mənbələrindən də tam istifadəyə imkan vermir. Kiçik və orta biznes üçün maliyyə vəsaitinin mühüm mənbəyi kommersiya banklarıdır. Son dövrlərdə bu istiqamətdə ayrılmış kreditlərin quruluşunda uzunmüddətli kreditlərin payı artmışdır. Bu da kiçik və orta sahibkarlığın inkişafına əhəmiyyətli təsir göstərmişdir. Kiçik və orta biznesin maliyyə vəziyyətindəki çətinliklər də onların inkişafına mənfi təsir göstərən amillərdən olmuşdur.

Kiçik biznesin inkişaf sahəsində beynəlxalq regional və xarici dövlətlərin milli təşkilatları ilə əməkdaşlıq genişləndirilmişdir. Bunlarla yanaşı ölkə iqtisadiyyatında hökm sürən makroiqtisadi sabitliyin yaratdığı imkanlardan kiçik biznesin inkişafının sürətləndirilməsi məqsədləri üçün tam istifadə olunmamışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı mövcud imkanlardan azdır. Özəl sektorun ölkə iqtisadiyyatında xüsusi çəkisi yüksək olsa da, bu bölmədə hələlik strateji cəhətdən mühüm olan struktur formalaşdırıcı potensiala malik müəssisələr zəif inkişaf edir. Kiçik biznes sektorunun ölkənin ixrac potensialının gücləndirilməsinə və strukturunun təkmilləşdirilməsinə təsiri məhduddur. Sahibkarın regional inkişafının hazırkı səviyyəsi ölkənin mövcud potensialı üzrə uyğun gəlmur. Daxili istehsalçılar arasında əlaqələr zəif inkişaf edir və kiçik biznesə iri müəssisələrin kooperasiya və inteqrasiyası zəruri səviyyəyə çatmamışdır.

Dünya təcrübəsində olduğu kimi Azərbaycanda da kiçik biznesin kişafının sürətləndirilməsi, bu sektorun səmərəli bazar iqtisadiyyatı sisteminin formalaşdırılması və beynəlxalq iqtisadi mühitə uyğunlaşdırılması, ğlkənin iqtisadi və sosial problemlərinin həllində rolunun genişləndirilməsi dövlətin iqtisadi siyasətinin öncül istiqamətlərindən birini təşkil edir. Bu məqsədlə kiçik biznes sektorunun inkişafına dövlət köməyi tədbirlərinin çərçəvəsi genişləndirilir və onların ünvanlılığı gücləndirilir.

Proqramın birinci bölməsi sahibkarlığın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi məsələlərinə həsr olunmuşdur. Burada xüsusi razılıq (lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısına vaxtaşırı baxılması və lisenziya sisteminin, kiçik biznes sferasında istehsal olunan məhsulların və xidmətlərin serifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi, kiçik biznesə məhsulların standartlaşdırılmasının, sertifikatlaşdırılmasının həyata keçirilməsi sahəsində metodiki və təşkilati köməyin göstərilməsini, kiçik biznes subyektlərinin müəyyən edilməsi meyarlarının təkmilləşdirilməsini, dövlət ehtiyacları üçün məhsul istehsalı və işlərin (xidmətlərin) görülməsi üzrə sifarişlərin yetinə yetirilməsində kiçik biznes subyektlərinin inkişafı mexanizmlərinin yaradılmasını nəzərdə tutur.

Beləliklə, sosial – iqtisadi inkişafın müasir mərhələsində bazar strukturlarının, xüsusilə, kiçik və orta biznes sektorunun inkişafı ölkənin bir sıra problemlərinin həll edilməsinə mühüm təsir göstərir. Bu isə əhəmiyyətli dərəcəd kiçik sahibkarlığın investisiya imkanlarının artırılmasından asılıdır. Odur ki, sosial – iqtisadi inkişafın bütün mərhələlərində bu məsələnin prioritetliyinin diqqət mərkəzində saxlanılması və kiçik biznesin investisiya imkanlarının artırılmasına dövlətin davamlı və çoxşaxəli

köməyi və təsiri məqsədəuyğun və olduqca zəruridir.

***Ədəbiyyat:***

1. Abbasov A.B. və b. Biznesin təşkili və idarə edilməsi. Dərslik. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2011.
2. Bayramov A. Biznes və menecmentin əsasları.Bakı: "Nurlan",-2018, 180 s.
3. Həsənov H.S. Sahibkarlıq strukturları. Bakı. Azərnəsr, 2007.
4. İmanov Ə.Ş. Kiçik sahibkarlıq. Bakı, "Elm". 2009.
5. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı, 2009.